AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 MART 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 55 (6088) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin Azərbaycana rəsmi səfəri

## Prezident İlham Əliyev Gürcüstanın Baş naziri ilə görüşüb









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Baş nazir Giorgi Kvirikaşvilini qarşıladı.

Sonra rəsmi foto çəkdirildi.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşü oldu.

**Prezident İlham Əliyev dedi:**

-Hörmətli cənab Baş nazir.

Mən sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, sizin səfəriniz Gürcüstan-Azərbaycan dostluq, qardaşlıq münasibətlərinin inkişafında mühüm rol oynayacaq. Biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik. Şadam ki, ticarət dövriyyəsi artır. Şadam ki, Azərbaycan Gürcüstana sərmayə qoyan ölkələrin arasında birinci yeri tutur. 2012-ci ildən biz bu birinciliyi saxlayırıq. Bu, onu göstərir ki, ölkənizdə çox gözəl sərmayə iqlimi var. Bu, eyni zamanda, onu göstərir ki, bizim əlaqələrimiz çox yüksək səviyyədədir.

Əlbəttə, bizi birləşdirən bir çox önəmli qlobal layihələr var. Biz keçən ilin oktyabr ayında sizinlə bərabər onlardan birinin açılışını qeyd etdik - Bakı-Tbilisi-Qars. Bu il Cənubi Qafqaz qaz kəmərinin, TANAP layihəsinin istifadəyə verilməsi nəticəsində əməkdaşlığımız daha da yüksək pilləyə qalxacaq. Yəni, bizim əməkdaşlığımız hətta regional formatdan çıxıb qlobal müstəviyə qalxır. Bütün bu uğurlu addımların təməlində bizim dostluğumuzdur, qardaşlığımızdır. Məhz həmin münasibətlər əminəm ki, bundan sonra da xalqlarımızın maraqlarına xidmət edəcək.

Bir daha sizi salamlayıram. Əminəm ki, səfəriniz çox uğurlu olacaq və səfərin çox yaxşı nəticələri olacaq.

* * *

**Baş nazir Giorgi Kvirikaşvili dedi:**

-Hörmətli cənab Prezident.

Səmimi qəbul üçün Sizə minnətdarlığımı bildirirəm. Şadam ki, bu səfər baş tutdu. Bu, bizim üçün xüsusi bir hadisədir. Çünki Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Sevindirici haldır ki, bizim iqtisadi əlaqələrimiz yüksələn xətt üzrə inkişaf edir. Keçən il ikitərəfli münasibətlər xüsusi inkişafla yadda qaldı.

Azərbaycan Gürcüstan üçün birinci investisiya tərəfdaşıdır. Bu yaxınlarda dərc olunan statistik məlumatlara görə, səfərlərin sayına görə də Azərbaycan Respublikası Gürcüstan üçün birinci yerdədir. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub Qaz Dəhlizi" layihələri çox mühüm əhəmiyyətə malikdir. Azərbaycan qazı "Cənub Qaz Dəhlizi" layihəsinin seqmentləri olan Trans-Anadolu və Trans-Adriatik kəmərləri ilə sonradan Avropaya nəql ediləcək. Bu layihələr iqtisadi və geosiyasi baxımdan çox mühümdür. Regional formatlarda əməkdaşlığımız çox vacibdir. Həm siyasi məsləhətləşmələr, həm də qlobal formatda əməkdaşlığımız mövcuddur.

Gürcüstan hər zaman Azərbaycanın mövqeyini dəstəkləyir. Bu, bizim strateji əlaqələrimizin göstəricisidir. Azərbaycanın ilk respublika elan olunmasının 100 illiyini təbrik edirəm. Bu, həm Gürcüstan, həm də Azərbaycan Respublikası üçün çox mühüm tarixdir. Ümid edirəm ki, biz bunu layiqli şəkildə qeyd edəcəyik. Bir daha səmimi qəbul üçün minnətdarlığımı bildirirəm.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin şərəfinə rəsmi nahar verildi.

**AZƏRTAC**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Bakıda insanların həlak olması və xəsarət alması ilə nəticələnən yanğın hadisəsi barədə xəbər məndə dərin təəssüf və kədər hissi doğurdu.

Zati-aliləri, bu ağrılı hadisə ilə bağlı əfqan xalqı adından Sizə və dost Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Bu faciəvi hadisədə əzizlərini itirmiş ailələrin yanında olduğumu və onların kədərini bölüşdüyümü bildirirəm.

Xəsarət alanların tezliklə sağalmalarını diləməklə yanaşı, Zati-aliləri, Sizə cansağlığı və müvəffəqiyyət, dost Azərbaycan xalqına isə səadət və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**Məhəmməd Əşrəf Qani**
**Əfqanıstan İslam Respublikasının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Bakıdakı Respublika Narkoloji Mərkəzində baş verən və insanların ölümünə səbəb olan yanğın barədə xəbər məni dərindən kədərləndirib.

Mən Sizə və yanğın qurbanlarının ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**Raul Kastro Rus**
**Kuba Respublikasının Dövlət Şurasının və Nazirlər Şurasının Sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm Prezident.

Bakı şəhərinin Xətai rayonundakı Respublika Narkoloji Mərkəzində insanların ölümü ilə nəticələnmiş yanğın haqqında faciəli xəbər məni dərindən kədərləndirdi.

Avropa Şurası adından və şəxsən öz adımdan həlak olanların ailələrinə, Azərbaycan rəhbərliyinə və Azərbaycan xalqına başsağlığı verirəm.

Avropa Şurası belə bir kədərli vaxtda Azərbaycan xalqının yanındadır.

*Hörmətlə,*

**Torbyorn Yaqland**
**Avropa Şurasının baş katibi**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Bakıdakı Respublika Narkoloji Mərkəzində Azərbaycan vətəndaşlarının ölümü ilə nəticələnmiş yanğın barədə xəbər məni dərindən sarsıtdı və kədərləndirdi.

Hörmətli cənab Prezident, İslam Əməkdaşlıq Təşkilatı olaraq bu faciəli hadisə ilə əlaqədar ağrı-acılarınızı bölüşürük. Həmçinin həlak olanların ailələrinə və qardaş Azərbaycan xalqına İslam Əməkdaşlıq Təşkilatı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, ölənlərə Tanrıdan rəhmət diləyir, xəsarət alanların isə tezliklə sağalmasını arzu edirəm.

*Hörmətlə,*

**Yusif bin Əhməd əl-Useymin**
**İslam Əməkdaşlıq Təşkilatının baş katibi**

# Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Martın 13-də ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda keçiriləcəyinin önəmi vurğulandı və bunun əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verəcəyi bildirildi. Görüşdə, eyni zamanda, ATƏT Parlament Assambleyası sessiyalarından birinin ölkəmizdə təşkil olunacağı məmnunluqla qeyd edildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunuldu. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulmalı və bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Görüşdə, eyni zamanda, Azərbaycanda qarşıdan gələn prezident seçkilərinə də toxunuldu. Prezident İlham Əliyev bu seçkilərin ədalətli, şəffaf şəkildə keçiriləcəyinə və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi.

Georgi Tsereteli Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi, Azərbaycanın iqtisadi uğurlarının böyük maraq doğurduğunu və bunun ümumilikdə bütün regionun inkişafına töhfə verdiyini vurğuladı.

Söhbət zamanı, həmçinin əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Məktəbəqədər təhsil müəssisələrində təhsilalanlara tibbi xidmətin göstərilməsi qaydası təsdiq edilib

**Azərbaycan Respublikası Nazirlər Kabineti "Məktəbəqədər təhsil müəssisələrində əlavə müayinə və müalicəyə ehtiyacı olan uşaqlara əlavə müalicə-bərpa xidmətinin göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Qərar qəbul edib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, qərara əsasən, məktəbəqədər təhsil müəssisələrində təhsilalanlara tibbi xidmət məktəbəqədər təhsil müəssisələrinin tibb işçiləri və ya ərazi üzrə ambulator-poliklinika müəssisəsinin məktəbəqədər təhsil müəssisəsinə təhkim olunmuş tibb işçiləri tərəfindən göstərilir. Məktəbəqədər təhsil müəssisəsində əlavə müayinə və müalicəyə ehtiyacı olan uşaqlar üçün fərdi qaydada aparılacaq müalicə-bərpa xidmətləri icbari dispanserizasiyanı aparan dövlət tibb müəssisələri tərəfindən müəyyən edilir. Məktəbəqədər təhsil müəssisəsində əlavə müayinə və müalicəyə ehtiyacı olan uşaqlara əlavə müalicə-bərpa xidmətləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 aprel tarixli 109 nömrəli qərarı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi Qaydası"na və "Xəstə və xəstələnmə riski olan uşaqlar üçün müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi Qaydası"na uyğun olaraq həyata keçirilir.

Qərara görə, məktəbəqədər təhsil müəssisəsində müalicə və ya müalicə-bərpa xidmətinə ehtiyacı olan uşaqlara təxirəsalınmaz hallar istisna olmaqla, digər tibbi xidmətlər onların valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı ilə göstərilir. Uşağa göstərilən əlavə müalicə-bərpa xidmətinin nəticələri ərazi üzrə ambulator-poliklinika müəssisəsinin məktəbəqədər təhsil müəssisəsinə təhkim olunmuş həkimi tərəfindən qiymətləndirilir. Uşağın sağlamlıq vəziyyətindən asılı olaraq, ehtiyac olduqda bu tədbirlər davam etdirilir. Aparılan əlavə müalicə-bərpa tədbirləri barədə məlumatlar "Uşağın Dispanser Müşahidə Kartı"nda (AZS 030/u) qeyd edilir və Vətəndaşların Elektron Sağlamlıq Kartı Sisteminə (VESKS-ə) daxil edilir.

Qərarda, həmçinin məktəbəqədər təhsil müəssisələrində əlavə müayinə və müalicəyə ehtiyacı olan uşaqlara əlavə müalicə-bərpa xidmətlərini ödənişsiz göstərilməsi də qeyd olunub.

**AZƏRTAC**

# Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ Dövlət Departamentinə nota ünvanlayıb

**Özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "prezidenti" kimi təqdim edən Bako Saakyanın ABŞ-a səfəri və Konqresin inzibati binasında qondarma rejimi təbliğ edən tədbir keçirməsi ilə əlaqədar Birləşmiş Ştatların Azərbaycandakı səfiri Robert Sekuta Xarici İşlər Nazirliyinə çağırılıb, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ABŞ Dövlət Departamentinə ünvanlandığı etiraz notası ona təqdim edilib. Həmçinin Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Dövlət Departamentində görüş keçirərək Azərbaycanın etirazını ABŞ tərəfinə çatdırıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilir.

Notada Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinin sakini olan Bako Saakyanın saxta məlumatlar təqdim edərək Ermənistan pasportu ilə ABŞ vizası alması və ABŞ ərazisinə daxil olması, Birləşmiş Ştatların müvafiq təsisatlarında qondarma separatçı rejimi təbliğ edən və Azərbaycan ərazilərinin işğalını dəstəkləmək üçün ABŞ ərazisində maliyyə toplamaq məqsədi daşıyan tədbirlər keçirməsinə icazə verilməsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, Azərbaycan və ABŞ arasında imzalanmış ikitərəfli sənədlərə, Birləşmiş Ştatların rəsmi mövqeyinə zidd olduğu qeyd edilir. ABŞ-ın bu addımı Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı fəaliyyət kimi qiymətləndirilir.

Həmçinin notada ABŞ-ın beynəlxalq hüququn norma və prinsipləri əsasında daşıdığı öhdəliklərini vicdanla yerinə yetirməli olduğu və ABŞ ərazisində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı fəaliyyətlərin qarşısını almalı olduğu vurğulanır.

"ABŞ ilə Azərbaycan digər sahələrdə tərəfdaşlıq münasibətlərinə malik olduğu halda, ABŞ tərəfindən həyata keçirilən bu təəccüblü addımı ABŞ-ın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar mövqeyinin dəyişməsi kimi qiymətləndirir və qərəzli hesab edirik. Postsovet məkanında olan digər separatçı rejimlərə münasibətdə ABŞ tərəfindən xüsusi sanksiyalar tətbiq olunduğu halda, Azərbaycana qarşı hərbi təcavüz və qanlı etnik təmizləmə nəticəsində yaradılmış qondarma rejimin nümayəndələrinin ABŞ ərazisinə daxil olmasına imkan yaradılması ikili standartların təzahürüdür", - deyə notada bildirilir.

Qeyd edilir ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi ABŞ BMT Təhlükəsizlik Şurasının konsensusla qəbul edilmiş müvafiq qətnamələrinin tələblərinin yerinə yetirilməsinə və bu xüsusda, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına çalışmalıdır.

ABŞ-ın bir tərəfdən münaqişənin danışıqlar yolu ilə həllinə çağırış etməsi, digər tərəfdən qondarma rejimin təbliğinə imkan yaratması və Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni əməllərə göz yumması ABŞ-ın qərəzsizliyi və obyektivliyi barədə ciddi suallar yaradır.

ABŞ-ın bu addımı danışıqlar prosesinə ciddi şəkildə xələl gətirir, regionda gərginliyin artmasına xidmət edir və davamlı sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində olan səylərə ciddi zərər vurur.

Bu kimi addımı ilə ABŞ Azərbaycan xalqının gözündə və ictimai rəydə ona olan münasibətə əsaslı dərəcədə zərbə vurub.

ABŞ-ın bu kimi davranışına cavab olaraq, Azərbaycan Respublikası ABŞ ilə münasibətlərində qarşılıqlılıq prinsipindən çıxış edəcək.

**AZƏRTAC**

# Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən martın 12-dən müxtəlif qoşun növlərinin, qismlərin, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı təlimlər başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərə 25 min nəfərədək şəxsi heyət, 250-dək tank və digər zirehli texnika, 1000-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 50-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

Təlimlər martın 17-dək davam edəcək.

**AZƏRTAC**

# Azərbaycan milli ideyasının öyrənilməsinə fundamental elmi töhfə

## *Akademik Ramiz Mehdiyevin milli ideyanın formalaşması məsələlərinə həsr edilmiş ikicildliyi Moskvada nəşr olunub*

**Milli ideya bütün dövrlərdə xalqın mövcud olduğu mürəkkəb ictimai-siyasi və mədəni-etnik sistemdə birinci dərəcəli element olub və bu gün də belədir. Bütün etnoslar özlərini maksimum dərəcədə dərindən dərk etməyə, öz əcdadlarının fikirlərini anlamağa, hazırda bərqərar olmuş sosial-mədəni milli birliyin yaranmasına gətirib çıxarmış tarixi proseslərin gedişini başa düşməyə çalışır.**

AZƏRTAC xəbər verir ki, azərbaycanlıların etnogenezi həm yerli, həm də xarici alimlərin tədqiqatlarının mövzusudur. Lakin bu mövzunun ən müxtəlif aspektləri ilə bağlı tədqiqatlarda heç vaxt sistemli yanaşma məsələsi qarşıya qoyulmayıb. Bu baxımdan, tam inamla demək olar ki, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin ikicildliyi Azərbaycan xalqının mənşəyi, onun təşəkkülü, milli ideyanın formalaşması haqqında tamamilə yeni araşdırmadır. Kitablar Moskvada - birinci kitab "Stolitsa" nəşriyyatında, ikinci kitab isə "Politiçeskaya ensiklopediya" nəşriyyatında buraxılıb. Mübaliğəsiz deyə bilərik ki, ikicildliyin fundamentallığı və nadirliyi müəllifin son dərəcə mürəkkəb olan bu problemin araşdırılmasına tarixi-fəlsəfi mövqedən yanaşması ilə bağlıdır. Akademik milli ideyanın təşəkkülünü Azərbaycan xalqının formalaşmasının əsaslarından başlayaraq tədqiq edir, çox mürəkkəb olan bu prosesdə mühüm rol oynamış tarixi məqamlara toxunur.




### Milli ideyanın formalaşmasında tarixin dərk edilməsinin faydası

Akademik Ramiz Mehdiyevin birinci kitabı "Milli ideyanın formalaşmasında tarixin dərk edilməsinin faydası" adlanır. Alim milli şüurun təməlini təşkil edən anlayışların tərifinin həyati əhəmiyyətini vurğulayaraq, milli ideyanın açıqlanması üçün çox böyük zəhmət çəkib. Müəllif birinci kitaba ön sözdə vurğulayır ki, müstəqil dövlətin mövcudluğu faktının özü Azərbaycanın intellektual fikrinin Azərbaycan cəmiyyətinin mövcudluğunun mənasının, həmçinin "bu ideya necə olmalıdır, onun mahiyyəti, təyinatı, məzmunu nədən ibarətdir, o, nəyə söykənir" suallarına cavab axtarışına yönəlmiş ideallar, dünyagörüşü oriyentasiyaları və dəyərləri kimi prioritet kompleks olan "milli ideya" tərəfə yönəlməsi üçün əsas verir. Müəllif xüsusi vurğulayır ki, bütün bu suallar elmi cavab tələb edir. O əmindir ki, yalnız bundan sonra bizim gələcəyə yolumuzu işıqlandıracaq milli ideyanı müəyyənləşdirə bilərik. Akademik yazır: "Milli ideya cəmiyyətin və dövlətin mənasıdır, bu məna olmasa, istər cəmiyyətin, istərsə də dövlətin gələcəyi yoxdur, tarixən məhvə məhkumdur".

Bu fundamental tədqiqat, ilk növbədə, çox aktual mövzunun öyrənilməsinə qeyri-ənənəvi yanaşma ilə fərqlənir. Müəllif Azərbaycan etnosunun və Azərbaycan dövlətinin formalaşması tarixini öyrənən tədqiqatçıların yolu ilə getmir. O, Azərbaycan xalqının etnogenezinin bir sıra aspektlərini yeni mövqedən işıqlandırır. Akademik Ramiz Mehdiyev milli ideyanın formalaşması mərhələlərini daha aydın təsəvvür etmək və dərindən dərk etmək üçün ilk dəfə olaraq antropoloji və genetik yanaşmalar tətbiq edir. Alim hesab edir ki, ilk növbədə, tarixi faktları hərtərəfli öyrənmək lazımdır, çünki onların ibrətamiz xüsusiyyətləri olmasa, xalqın etnomədəni mahiyyətini tam anlamaq olmaz. Alim yazır: "Tarix - nümunələrin köməyi ilə öyrədən fəlsəfədir. Nümunə gücünün gündəlik təsirini görmək üçün ətraf aləmə nəzər salmaq kifayətdir. Nümunənin nə üçün belə güclü olmasını aşkar etmək üçün daxilə baxmaq lazımdır".

Akademik xalqın etnogenezi, etnik kökləri barədə söhbət açaraq qeyd edir ki, antropoloji material olmadan bu məsələləri heç cür tədqiq etmək olmaz: "Yalnız antropoloji məlumatlar etnosun və daha sonra millətin formalaşdığı etnik təbəqələri müəyyən etmək üçün mühüm əsasdır". Müəllif bu məsələni araşdıraraq bir sıra qiymətli məlumatlar təqdim edir, bunun sayəsində Azərbaycan xalqının antropoloji, habelə etnik xüsusiyyətləri aydınlaşır. Xüsusi vurğulamaq lazımdır ki, monoqrafiyada Qafqaz xalqlarının antropoloji tipləri, müxtəlif etnosların psixi xüsusiyyətləri, insanın genetik xassələri barədə zəngin material verilib.

Alimin bu əsəri həm də ona görə qiymətlidir ki, burada etnogenezin öyrənilməsi üzrə Azərbaycan elminin qarşısında dəqiq vəzifələr qoyulur. Akademik vurğulayır ki, Azərbaycan xalqının antropologiyasının, molekulyar-genetik bazasının, paleoantropologiyasının və etnopsixologiyasının, təbii-coğrafi mühitin rolunun dərindən öyrənilməsi ilə məşğul olmaq lazımdır. Bu məlumatlar Azərbaycan xalqının etnogenezi haqqında elmi nəticələr çıxarmaq üçün son dərəcə zəruridir.

Monoqrafiyada Azərbaycan xalqının milli ideyasının formalaşmasının ən mühüm mərhələləri izlənilir. XIX-XX əsrlərdə, sovet dövründə, xalqın milli identikliyini məhv etməyə cəhd göstərilən vaxtda Azərbaycanda milli ideyanın formalaşması mənbələri dərindən araşdırılır. Birinci kitabda sovet dönəmində ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni tərəqqisi naminə titanik fəaliyyətinə böyük diqqət yetirilib. Müəllifin fikrincə, Heydər Əliyevin dahi şəxsiyyət kimi nadirliyi ondan ibarətdir ki, o, totalitar kommunist rejimi şəraitində millətin gələcək inkişafına aparan ictimai problemləri həll edirdi. Ramiz Mehdiyev ali niyyətlərin və milli ideyaların reallaşmasında şəxsiyyətin rolunu unutmamağa çağıraraq yazır: "Azərbaycan milli ideyası məsələləri mücərrəd mühakimələr şəklində nəzərdən keçirilə bilməz... Milli ideyanın formalaşması və onu reallaşdırmaq uğrunda mübarizə problemləri məhz cəmiyyətin gündəlik problemlərinin həllinə, insanların sosial-iqtisadi həyatı üçün normal şəraitin təmin edilməsinə, onların ümdə məqsədə nail olmaq naminə hərəkət etməyə mənəvi və əxlaqi baxımdan hazır olmasına əsaslanır".

Alim həm öz köklərini onlar üçün tamamilə yad olan xalqlarla bağlamaqla öz mənşəyini təhrif edən, həm də azərbaycanlıların etnogenezi barədə yalan məlumat yayan ermənilərin etnogenezi məsələsinə də toxunur. Bu monoqrafiyada öz əksini tapan, həm erməni tarixçilərinin özləri, həm də xarici tədqiqatçılar tərəfindən göstərilən inandırıcı tarixi faktlar ermənilərin psevdo-tarixi məktəbini alt-üst edir.

Oxucu bu kitabda Qarabağ münaqişəsinin necə başlanması, ermənilərin sovet rəhbərliyini və elmi ictimaiyyəti Dağlıq Qarabağın belə adlandırılan "böyük Ermənistan"a mənsub olmasına yalan gücünə necə inandırmağa çalışmaları və o vaxtkı sovet rəhbərliyi özünün mütləq mənada hərəkətsizliyi ilə buna necə himayədarlıq etməsi barədə məlumat tapacaq.

### Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası

Akademik Ramiz Mehdiyevin ikicildliyinin ikinci kitabı "Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası" adlanır. Bu kitab XX əsrin sonunda müstəqil Azərbaycan dövlətinin yaranması probleminin təhlilinə həsr edilib.

Müəllifin ikinci kitabında milli ideyanın formalaşmasının tarixi məqamlarının tədqiqinin davamı kimi, Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən proseslər ətraflı təhlil edilir, dövlət quruculuğunun struktur xassələri açıqlanır, milli ideyanın və dövlətçiliyin formalaşması üçün zəruri olan əsas elementlər nəzərdən keçirilir.

Akademik Ramiz Mehdiyev məsələyə elmi mövqedən yanaşaraq dövlət quruculuğunun, müstəqilliyin, milli dəyərlərin qorunub saxlanmasının nə qədər mürəkkəb olmasını hərtərəfli açıqlayır. Alim inandırıcı şəkildə göstərir ki, Azərbaycanın müstəqilliyinin ilk illərində ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni məhv olmaqdan xilas etdi, onun gələcəyini müəyyənləşdirdi. Müəllif yazır: "Heydər Əliyev Azərbaycanın hansı yolla getməli olduğunu dəqiq təsəvvür edirdi və o, üç əsas məsələnin həllindən ibarət olan konsepsiya təklif etdi: birincisi, ölkədə siyasi sabitlik yaradılması; ikincisi, çoxvektorlu xarici siyasətin təmin edilməsi; üçüncüsü, ölkənin inkişafına və dünyada qabaqcıl mövqelərə çıxmasına dair sosial-iqtisadi siyasətin əsasını təşkil etməli olan neft strategiyasının həyata keçirilməsi".

Zənnimizcə, regionda güclü dövlətlərin fonunda geosiyasi əhəmiyyət kəsb edən bir sıra gizli siyasi proseslərə aydınlıq gətirən sənədlərlə tanışlıq oxucu üçün maraqlı olacaq. Müəllif Azərbaycan milli ideyasının formalaşması mərhələlərini sistemli şəkildə fərqləndirir və həmin dövrdə milli mənlik şüuruna təsir göstərən siyasi hadisələri ətraflı təsvir edir.

Akademik Ramiz Mehdiyev əmin olduğunu bildirir ki, qlobal transformasiyalar dövründə ölkəmiz keyfiyyətcə yeni texnoloji cəmiyyətə keçməli, kreativ gəncliyə arxalanmalıdır: "Sağlam və kreativ gəncliyin üstünlük təşkil etdiyi dövlətdə iqtisadiyyatın dinamik artımı, cəmiyyətin həyat fəaliyyəti sahələrinin inkişafı üçün daha çox şans var. İnnovasiyanın mənası kreativlikdə, nümunəni dəyişməkdə, yenisini yaratmaqdadır. Azərbaycanda XXI əsr cəmiyyətinin qurulması prosesi gənc innovatorun kreativ potensialına güvənməyə bilməz".

Müəllif qeyd edir ki, 2003-cü ildə başlanmış yeni inkişaf mərhələsi bu gün dövlətimiz tərəfindən ölkənin hərtərəfli modernləşməsinə nail olmaq üçün davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan insan kapitalı yaradılması, elmin ən yeni nailiyyətlərinin, yeni texnologiyaların və yeni idarəçilik metodlarının tətbiqi əsasında bu hədəfə yönəlib. Milli kreativ elitanın formalaşması yollarının, kreativ sinfin müəllif tərəfindən qeyd edilən tərifi diqqəti cəlb edir, bu sinfin nümayəndələri innovasiyalara və iqtisadi inkişafa yönəlib.

Alim əmindir ki, Azərbaycan qloballaşma dövründə özünün milli yönümlü inkişaf yolunu qoruyub saxlamaq üçün zəruri resurslara malikdir. Dövlət hakimiyyətinin daha da möhkəmlənməsi müasir şəraitdə milli ideyanın reallaşmasına təminat verir.

Akademik Ramiz Mehdiyev dərindən əmin olduğunu bildirir ki, Prezident İlham Əliyevin dövlətçilik istedadı sayəsində Azərbaycan xalqı bundan sonra da XXI əsrin tələbləri səviyyəsində sosial-iqtisadi inkişaf və milli məsələlərinin həlli yolu ilə irəliləyəcək. Müəllif vurğulayır: "Bu quruculuq yolu Azərbaycanı yeni postsənaye cəmiyyətinə gətirib çıxaracaq. Postsənaye cəmiyyətinin yaradılması isə XXI əsrdə Azərbaycan xalqının milli ideyasının əsas hədəfidir".

İkicildlik filosoflara, tarixçilərə, sosioloqlara, politoloqlara, habelə humanitar elmdə ən yeni araşdırmaları izləyən, sosial inkişaf nəzəriyyələri ilə maraqlanan hər kəsə ünvanlanıb.

**AZƏRTAC**

# Ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Azərbaycanda rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili martın 12-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Baş nazir Giorgi Kvirikaşvili tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələrini yad edib, məzarları üstünə gül dəstələri qoyub.

## Şəhidlərin xatirəsinə ehtiram

Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili martın 12-də Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, burada Giorgi Kvirikaşvilinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndirilib.



Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Baş nazirə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**

# ATƏT Parlament Assambleyasının sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda səfərdə olan ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli martın 12-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən qonaq ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə güllər qoyub, "Əbədi məşəl" abidəsini ziyarət edib.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən ATƏT Parlament Assambleyasının sədrinə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**



# Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə martın 12-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini deyən Baş nazir Artur Rasi-zadə münasibətlərimizin strateji xarakter daşıdığını və əsrlər boyu ölkələrimiz arasında mövcud dostluğa əsaslandığını bildirib. Azərbaycanın Baş naziri ölkələrimizin iştirakı ilə reallaşdırılan irimiqyaslı layihələrin əhəmiyyətini vurğulayıb, Azərbaycan ilə Gürcüstan arasında qurulan iqtisadi əlaqələr üzrə göstəricilərin müsbət olduğunu qeyd edib, münasibətlərimizin daha da möhkəmlənməsi üçün tədbirlərin görülməsinin vacibliyini diqqətə çatdırıb. Bildirib ki, iqtisadi və humanitar sahələrlə yanaşı, müdafiə sahəsində əlaqələr də inkişaf edir.



Baş nazir Artur Rasi-zadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışaraq vurğulayıb ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və bu, Azərbaycanın prinsipial mövqeyidir.

Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili regiondakı sabitlikdə maraqlı olduqlarını bildirərək deyib ki, Gürcüstan da bütün beynəlxalq formatlarda münaqişələrin ölkələrin ərazi bütövlüyü və beynəlxalq hüququn normaları əsasında tənzimlənməsinin tərəfdarıdır. İkitərəfli münasibətlərin böyük perspektivi olmasından məmnunluğunu ifadə edən qonaq Azərbaycan ilə birgə həyata keçirilən qlobal neft, qaz və nəqliyyat layihələrinin əhəmiyyətini vurğulayıb, ticari-iqtisadi münasibətlərdə müsbət dinamikanın olduğunu sevindirici hal kimi dəyərləndirib.

* * *

Görüşdən sonra Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin şərəfinə şam yeməyi verilib.

**AZƏRTAC**

# Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb

**Martın 12-də Milli Məclisin sədri Oqtay Əsədov ATƏT Parlament Assambleyasının (PA) sədri Georgi Tseretelinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən ATƏT PA ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. "Təqdirəlayiq haldır ki, qonağın təmsil etdiyi qurumla münasibətlərimiz yüksələn xətt üzrə inkişaf edir", - deyən spiker ümidvar olduğunu bildirib ki, ATƏT PA sədrinin ölkəmizə budəfəki səfəri ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə öz töhfəsini verəcək.



Görüşdə qeyd edilib ki, dinamik inkişaf edən Azərbaycan bu gün regional və qlobal layihələrin reallaşmasında fəal iştirak edir. Ölkəmizin iştirakçısı olduğu və İpək Yolunun mühüm hissəsini təşkil edən Şərq-Qərb, o cümlədən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin və nəqliyyat marşrutlarının inkişafı üçün əməli addımlar atılır. Məlum olduğu kimi, Azərbaycan tərəfinin təşəbbüsü ilə ATƏT PA-da İpək Yoluna Dəstək Qrupu yaradılıb. Əgər qrup yaranan vaxt 17 ölkə bu qurumun üzvü idisə, bu gün onların sayı 22-yə çatıb. Bu, Avropa ölkələrinin Azərbaycanın təşəbbüsünə göstərdiyi böyük marağın nəticəsidir.

Milli Məclisin sədri ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq konfransının Bakıda keçirilməsini heç də təsadüfi hesab etməyib. O bildirib ki, "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsinə parlamentarilərin rolu" mövzusunda beynəlxalq konfransda müzakirə olunacaq məsələlər təkcə qrup üzvü olan ölkələr üçün deyil, həm də bütövlükdə ATƏT məkanında yerləşən dövlətlər üçün böyük iqtisadi əhəmiyyət kəsb edir.

Görüşdə Azərbaycanın prezident seçkiləri ərəfəsində olduğuna diqqət çəkən Milli Məclisin sədri ATƏT nümayəndələrinin bu mühüm əhəmiyyətli siyasi prosesdə müşahidəçi qismində iştirak etmələrini müsbət dəyərləndirib. Bildirilib ki, hüquqi, dünyəvi, demokratik yolla inamla addımlayan Azərbaycanda insan hüquq və azadlıqlarının qorunmasına, vətəndaşların öz iradələrini azad şəkildə ifadə etmələrinə böyük önəm verilir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən ATƏT PA-nın sədri Georgi Tsereteli ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. O, Azərbaycan nümayəndə heyətinin ATƏT PA-dakı fəaliyyətini yüksək dəyərləndirərək, Bakıda keçiriləcək beynəlxalq konfransın əhəmiyyətini qeyd edib. Diqqətə çatdırıb ki, Azərbaycanın təşəbbüsü ilə yaradılmış İpək Yoluna Dəstək Qrupu bu tarixi yol üzərində müasir nəqliyyat infrastrukturunun qurulmasına böyük maraq göstərir. Bu, təkcə region xalqları üçün deyil, ATƏT-ə üzv dövlətlərin hamısı üçün böyük önəm daşıyır.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 12-də Milli Məclisdə keçirilən görüşlərdən sonra ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli KİV nümayəndələri ilə görüşüb.

Səfər çərçivəsində ölkəmizdəki görüşləri barədə fikirlərini açıqlayan Georgi Tsereteli martın 13-də Bakıda keçiriləcək "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransın əhəmiyyətindən danışıb.

Sonda qonaq jurnalistləri maraqlandıran sualları cavablandırıb.

**AZƏRTAC**

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili martın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Gürcüstanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Giorgi Kvirikaşvilini Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndirildi.

* * *

Martın 12-də Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin Azərbaycana rəsmi səfəri başa çatıb.

**AZƏRTAC**




*Georgi Tsereteli:*

# İpək Yoluna Dəstək Qrupunun Bakı konfransı böyük əhəmiyyət daşıyır

**İpək Yoluna Dəstək Qrupunun Bakıda keçiriləcək konfransı olduqca böyük əhəmiyyət daşıyır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri martın 10-da ölkəmizə səfərə gələn ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli Heydər Əliyev Beynəlxalq Aeroportunda jurnalistlərə verdiyi açıqlamasında deyib.

İpək Yoluna Dəstək Qrupunun Azərbaycanın təşəbbüsü ilə ötən il yaradıldığını xatırladan Georgi Tsereteli bildirib ki, artıq 20 ölkə bu layihəyə qoşulub.

Ölkəmizə səfəri çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirəcəyini deyən sədr görüşlərdə təhlükəsizlik, regional əməkdaşlıq və müxtəlif sahələri əhatə edən digər məsələləri müzakirə edəcəklərini vurğulayıb.

**AZƏRTAC**

# ATƏT Parlament Assambleyasının sədri Xarici İşlər Nazirliyində olub

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT Parlament Assambleyası ilə Azərbaycan arasında əməkdaşlıq məsələləri müzakirə edilib, konstruktiv dialoq və anlaşma ruhunda əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Georgi Tsereteli martın 13-də ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda keçirilməsinin əməkdaşlığın möhkəmlənməsinə əsaslı töhfə verəcəyinə əminliyini bildirib. O, Azərbaycan nümayəndə heyətinin ATƏT Parlament Assambleyasının işində fəal iştirakını və əməkdaşlığı inkişaf etdirmək üçün təşəbbüslərlə çıxış etməsini təqdir edib.

Söhbət zamanı ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi haqqında fikir mübadiləsi aparılıb. Elmar Məmmədyarov vurğulayıb ki, güc tətbiq



edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdləri qəbuledilməzdir. Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktı əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanda qarşıdan gələn prezident seçkilərinə də toxunulub. Elmar Məmmədyarov seçkilərin azad, ədalətli, şəffaf və demokratik şəkildə keçiriləcəyini və Azərbaycan xalqının iradəsini əks etdirəcəyini vurğulayıb. O, seçkilərin keçirilməsi üçün hazırlıq işlərinin peşəkar şəkildə Mərkəzi Seçki Komissiyası tərəfindən aparıldığını diqqətə çatdırıb.

Georgi Tsereteli ATƏT-in Parlament Assambleyasının qərəzsiz və neytral mövqedən çıxış edərək seçkiləri müşahidə edəcəyini qeyd edib.

Görüşdə Azərbaycan və ATƏT PA arasında əlaqələrin inkişaf perspektivləri, ATƏT-in gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Qazaxıstanın baş nəqliyyat prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlib





**Qazaxıstan Respublikasının baş nəqliyyat prokuroru Marat Alixanovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralovun dəvəti ilə martın 12-də ölkəmizə səfərə gəlib. Səfərin məqsədi Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının prokurorluq orqanları, o cümlədən sərhədyanı ərazilərin prokurorluqları arasında cari məsələlərin, gələcək əməkdaşlıq və işgüzar əlaqələrin daha da möhkəmləndirilməsidir.**

AZƏRTAC xəbər verir ki, Qazaxıstan Respublikası Prokurorluğunun nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edərək, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilib. Görüşdə qonaqları səmimi salamlayan baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənən ikitərəfli münasibətlərin inkişafında Azərbaycan və Qazaxıstan dövlətlərinin sınanmış liderlərinin müstəsna xidmətlərini, ölkə rəhbərlərinin başçılığı ilə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi qeyd edib. Məhz bu münasibətlərin ölkələrimizin daha da yaxınlaşması, hər iki respublikanın müxtəlif dövlət təsisatları, o cümlədən prokurorluq orqanları arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı yolunda böyük stimul olduğu diqqətə çatdırılıb.



Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Qazaxıstan Respublikasının həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi, 2008-ci ildə BMT Baş Məclisində Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətə dair məsələ ilə bağlı səsvermə zamanı Qazaxıstanın obyektiv və birmənalı mövqeyinin əhəmiyyəti vurğulanıb.

Baş prokuror son illər ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib. Mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya və rüşvətxorluq cinayətlərinə qarşı mübarizə məsələlərinin təşkilində və həyata keçirilməsində prokurorluq orqanlarının üzərinə mühüm vəzifələr qoyulduğu vurğulanaraq, bu sahədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən görülən işlər, yaradılmış 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi barədə məlumatlar qonaqların diqqətinə çatdırılıb.

Azərbaycanda uğurla həyata keçirilən hüquqi islahatlara böyük maraq göstərdiyini diqqətə çatdıran Qazaxıstan Respublikasının baş nəqliyyat prokuroru Marat Alixanov hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu deyərək, ölkələrimizin müxtəlif sahələrdə münasibətlərinin sürətlə inkişaf etdiyini, xüsusilə iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsinin qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildirib. Azərbaycan ilə Qazaxıstan arasında sıx qardaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edən qonaq ölkələrimizin müasir demokratik inkişaf yolu ilə inamla irəlilədiyini vurğulayıb. O, respublikamızın çox qısa zamanda yüksək nailiyyətlər əldə etdiyini bildirərək, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən tədbirləri alqışlayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb. Həmçinin transmilli cinayətkarlıqla mübarizə, iqtisadi qaçaqmalçılıq, narkotiklərin qanunsuz dövriyyəsi, nərə cinsli balıqların qanunsuz ovlanması, qanunsuz sərhədkeçmə, Xəzər dənizinin ekologiyasının qorunması və yaxşılaşdırılması mövzuları, eləcə də tərəfləri maraqlandıran digər məsələlər müzakirə edilib. Söhbət zamanı iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Qazaxıstan nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi, Azərbaycan-Qazaxıstan münasibətlərinə həsr edilmiş ekspozisiyalarla tanış olub. Qonaqlara Azərbaycan dövləti, onun hüquq sistemi, dövlətimizin başçısının rəhbərliyi ilə aparılan islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair materialları əks etdirən xüsusi guşə təqdim edilib.

Qazaxıstan nümayəndə heyəti daha sonra Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində olub.

Baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qonaqlara prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan islahatlar, Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat verib.

Nümayəndə heyəti milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş İdarənin inzibati binasında normativ hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitab portallarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olub.

Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Qazaxıstanın nəqliyyat baş prokuroru Marat Alixanov korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. O, korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Nümayəndə heyətinin üzvlərinin çirkli pulların yuyulması ilə mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər, prokurorluq orqanları tərəfindən bu qəbildən cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi və dövlət ittihamının müdafiəsi sahələrindəki fəaliyyətə dair sualları ətraflı cavablandırılıb.



Görüşdə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Qazaxıstan nümayəndə heyətinin Azərbaycana səfəri davam edir.

**AZƏRTAC**

---

*XİN:*

## Hazırda Azərbaycan Ordusunun keçirdiyi təlim ATƏT-in Vyana sənədinin müddəalarına uyğundur

**Ermənistanın Helsinki Yekun Sənədi və etimad quruculuğu tədbirlərinə dair Vyana sənədi əsasında öhdəliklər daşıması deyəsən Ermənistan Xarici İşlər Nazirliyinin indi yadına düşüb. BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və digər ATƏT sənədləri çərçivəsində üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq Ermənistan Azərbaycana qarşı gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal edib. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunu davam etdirməsi regional sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalır.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin açıqlamasında yer alıb.

Hikmət Hacıyev deyib ki, Vyana sənədi çərçivəsində üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirdiyi canlı qüvvə, hərbi texnikanın sayı və dislokasiya yerləri, həmçinin işğal olunmuş ərazilərdə Ermənistan prezidentinin iştirakı ilə keçirdiyi hərbi təlimlər barədə heç bir məlumat vermir. Bu qüvvələr Vyana sənədi üzrə müvafiq inspeksiyalardan gizlədilir.

2014-cü ilin noyabrında dövlət başçılarının Paris görüşündən sonra Ermənistanın 40 mindən artıq şəxsi heyətin, minlərlə hərbi texnikanın iştirakı ilə Azərbaycanın işğal olunmuş ərazilərində hərbi təlim keçirməsi, Ermənistan silahlı qüvvələrinə məxsus döyüş helikopterlərinin Azərbaycan silahlı qüvvələrinin mövqeləri üzərində hücum manevrləri etməsi Ermənistanın riyakarlığının və öz öhdəliklərini kobud şəkildə pozmasının növbəti açıq nümunəsidir.

Hazırda Azərbaycan silahlı qüvvələri tərəfindən Azərbaycanın suveren ərazilərində həyata keçirilən təlim ATƏT-in 2011-ci ildə qəbul edilmiş Vyana sənədinin V fəslinin müddəalarına uyğundur.

**AZƏRTAC**

---

## Azərbaycan və Monqolustan Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Monqolustan Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Memorandum Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Monqolustanın xarici işlər naziri Damdin Tsogtbatarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə imzalanıb.



Görüşdə nazirlər iki xalq arasında tarixən mövcud olan ənənəvi dostluq əlaqələrini təqdir edərək Azərbaycan ilə Monqolustan arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə ediblər.

Damdin Tsogtbatar keçmiş SSRİ dönəmində çoxlu sayda azərbaycanlı mütəxəssislərin Monqolustanda çalışdığını, ölkənin inkişafına töhfə verdiklərini və monqolustanlı tələbələrin Azərbaycanın ali təhsil müəssisələrində təhsil aldığını qeyd edib. O, ölkəmizə səfərinin Monqolustan tərəfindən Azərbaycanla əlaqələrin inkişafına verilən önəmin təzahürü olduğunu deyib.

Ölkələr arasında münasibətlərin dərinləşdirilməsi məqsədilə nazirlər yüksək səviyyəli qarşılıqlı rəsmi səfərlərin təşkili ilə bağlı fəaliyyətin gücləndirilməsinin və müqavilə-hüquq bazasının genişləndirilməsinin vacibliyini vurğulayıblar. Bu xüsusda, monqolustanlı nazir azərbaycanlı həmkarını Monqolustana səfərə dəvət edib.

Azərbaycan ilə Monqolustan arasında iqtisadi əməkdaşlığın inkişafı üçün potensialın mövcudluğunu bildirən nazirlər iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına yönəlmiş birgə səylərin zəruriliyini xüsusilə qeyd ediblər. Bu zəmində tarixi İpək Yolu əsasında Çinin təşəbbüskarı olduğu "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

Nazir Elmar Məmmədyarov ölkəmizin "Ekspo 2025"ə ev sahibliyi etmək üçün müraciət etdiyini və Azərbaycanın namizədliyinin Monqolustan tərəfindən dəstəklənəcəyinə ümidvar olduğunu vurğulayıb. Nazir, həmçinin həmkarına bu ilin aprelində Bakıda keçiriləcək Qoşulmama Hərəkatı nazirlər toplantısı haqqında məlumat verib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar haqqında məlumat verən Elmar Məmmədyarov münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu vurğulayıb. O, münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həllinin dəstəklənməsinə dair Monqolustanın ədalətli mövqeyini yüksək qiymətləndirib.

Görüş zamanı, həmçinin iki ölkə arasında elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

**AZƏRTAC**

---

## XİN prezident seçkiləri ilə əlaqədar Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqlarında görülən işlərə dair məlumat yayıb

**Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqlarında Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkili məqsədilə gücləndirilmiş rejimdə zəruri tədbirlər görülür. Bununla əlaqədar olaraq, Xarici İşlər Nazirliyinin (XİN) müvafiq idarələrinin əməkdaşlarından ibarət işçi qrup yaradılıb və Mərkəzi Seçki Komissiyası ilə əlaqələndirilmiş şəkildə iş aparılır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin prezident seçkilərinə hazırlıq işləri ilə bağlı açıqlamasında məlumat verilir.

Qeyd edilir ki, Seçki Məcəlləsinin 2.3.-cü maddəsinə əsasən, Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları seçkilərin və referendumun keçirilməsi zamanı Azərbaycandan kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Konstitusiyasının 3-cü və 56-cı maddələrində nəzərdə tutulan (seçki) hüquqlarının həyata keçirilməsinə kömək göstərməlidirlər. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 4.12.-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları konsul dairəsində yaşayan və (və ya) müvəqqəti olan Azərbaycan Respublikası vətəndaşlarına seçki hüquqlarını həyata keçirmələrinə kömək göstərir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.6.-cı maddəsinə əsasən, səsvermə günü xarici dövlətlərdə olan seçicilərin səs verməsi və səslərinin hesablanması üçün seçki məntəqələri seçicilərin olduğu ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri tərəfindən konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən artıq olduqda səsvermə gününə azı 30 gün qalmış yaradılır.

Bununla əlaqədar, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 27 iyun 2003-cü il tarixli 4/25 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikası Prezidentinin seçkilərinin və referendumun təşkili haqqında Təlimat" mövcuddur.

Mərkəzi Seçki Komissiyasının təşəbbüsü əsasında Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkili ilə əlaqədar metodik təcrübə mübadiləsi məqsədilə martın 13-də Xarici İşlər Nazirliyində Mərkəzi Seçki Komissiyasının nümayəndə heyəti, Xarici İşlər Nazirliyinin tərkibindəki sözügedən işçi qrupun üzvlərinin iştirakı ilə təlimin keçirilməsi nəzərdə tutulub.

Hazırda Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqlarında konsulluq qeydiyyatında olan 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşlarının - aktiv seçki hüququna malik seçicilərin sayı barədə məlumatlar XİN tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edilib.

Azərbaycan Respublikasının 32 ölkədə yerləşən diplomatik nümayəndəlikləri və konsulluqlarında 41 məntəqədə seçki məntəqəsi yaradılması planlaşdırılır.

**AZƏRTAC**

# Daxili Qoşunlar istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə qadirdir





**Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının yaranmasından 26 il ötür.**

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əlamətdar hadisə münasibətilə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

Daxili Qoşunların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularının xatirəsinə ucaldılmış abidə də ziyarət olunub.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində bu qurumun yaranmasının 26-cı ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Mərasimdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov iştirak ediblər.

Əvvəlcə Daxili Qoşunların döyüş bayrağı salona gətirilib və ulu öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların, ümumilikdə bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və hazırkı dövrdə fəaliyyəti barədə geniş məruzə ilə çıxış edib. Məruzədə qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə 12 mart - Daxili Qoşunlar Günü kimi müəyyən edilib. Torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında Qoşunların 510 hərbi qulluqçusu həlak olub, 1166 nəfəri yaralanıb, 268 nəfəri itkin düşüb. Hərbi qulluqçulardan 9 nəfəri “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

Məruzəçi qeyd edib ki, atəşkəs dövründə Qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş və peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqət və fədakarlıqla xidmət edən Daxili Qoşunların hərbi qulluqçuları polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman uğurla yerinə yetiriblər. Ötən il ölkəmizdə keçirilən mötəbər beynəlxalq idman yarışları - IV İslam Həmrəyliyi Oyunları, atıcılıq üzrə Dünya Kuboku, Formula 1 Azərbaycan Qran-Prisi, Bakıda və Göygöl rayonunda keçirilən qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsi və digər beynəlxalq tədbirlərdə qarşıya qoyulmuş tapşırıqların icrası tam təmin edilib. Bu ilin aprelində keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisində də Daxili Qoşunların qarşısında mühüm tapşırıqlar qoyulub. Şübhə yoxdur ki, şəxsi heyət bu dəfə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxışında təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini bildirib. Prezidentin köməkçisi ali diqqət və qayğı, eyni zamanda, ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini məmnunluqla vurğulayıb. Fuad Ələsgərov ölkə iqtisadiyyatının davamlı inkişafının və mövcud ictimai-siyasi sabitliyin əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi, maddi-texniki təminatın daha da yaxşılaşdırılması istiqamətində təşkilati-praktiki addımların atılması üçün əlverişli zəmin yaratdığını qeyd edib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirdə çıxış edərək “Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir”, - deyən ulu öndər Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Ramil Usubov vurğulayıb ki, bu gün dövlətimizin başçısının ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Nazir deyib ki, Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarlar, göstərilən diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıq və ruh yüksəkliyi ilə qarşılanır. Ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. Məhz dövlətin əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr beynəlxalq standartlara uyğun texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib.

Diqqətə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Nazir Ramil Usubov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarma Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

Çıxışının sonunda general-polkovnik Ramil Usubov daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirən, peşə bayramı ərəfəsində bir qrup hərbi qulluqçunu dövlət mükafatları ilə təltif edən, həmçinin şəxsi heyətin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı müvafiq sərəncamlar imzalayan Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək və əminliklə bildirib ki, hərbi qulluqçular bundan sonra da müstəqilliyin, sabitliyin və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanacaq, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcək, döyüş hazırlıqlarını daim artıracaqlar.

Daxili Qoşunların yaranmasının 26-cı ildönümü ilə əlaqədar bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında dövlətimizin başçısının Sərəncamı, həmçinin daxili işlər nazirinin və nazir müavini-Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri və yeni rütbələrin paqonları təqdim edilib.

**AZƏRTAC**

# Monteneqro parlamentinin sədri Azərbaycana səfərə gəlib

**Monteneqro parlamentinin sədri İvan Brayoviç martın 12-də Azərbaycana rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Monteneqro parlamentinin sədrini Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov və digər rəsmi şəxslər qarşılayıblar.

**AZƏRTAC**



*Məzahir Pənahov:*

# Ümumi mənzərədən görünür ki, Azərbaycan ictimaiyyəti seçki prosesinə fəal qoşulub

**Azərbaycanın kifayət qədər seçki təcrübəsi var. Ona görə də aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı hər hansı problemin olacağı gözlənilmir. Bütün addımlar Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq atılır.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib.

MSK sədri qeyd edib ki, kütləvi informasiya vasitələri seçki prosesini, o cümlədən namizədlərin və səlahiyyətli nümayəndələrin seçkilərə nə qədər maraqlı olduğunu ictimaiyyətə düzgün və dolğun şəkildə çatdırır. Ümumi mənzərədən görünür ki, Azərbaycan ictimaiyyəti seçki prosesinə fəal qoşulub. Bütün seçicilərə tam imkan yaradılacaq ki, aprelin 11-də öz iradələrini ifadə etsinlər.

Martın 12-də saat 18.00-da namizədlərin müraciətləri ilə bağlı vaxtın başa çatdığını xatırladan MSK sədri Seçki Məcəlləsinə əsasən Komissiyanın daxil olan sənədlərə daha yeddi gün baxmaq hüququna malik olduğunu söyləyib. O bildirib ki, martın 19-da proses tam başa çatacaq. Bundan sonra namizədlərin seçkiqabağı təşviqat prosesinə start veriləcək.

**AZƏRTAC**

# Mərkəzi Seçki Komissiyasının sədri daha iki prezidentliyə namizədə vəsiqələrini təqdim edib

**Azərbaycan Respublikası prezidentliyinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Zahid Oruca və namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası tərəfindən irəli sürülmüş Araz Əlizadəyə martın 12-də prezidentliyə namizədlik vəsiqələri təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış namizədlər Zahid Orucu və Araz Əlizadəni təbrik edib, vəsiqələrini onlara təqdim edib.

MSK sədri seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün zəruri işlərin görüldüyünü söyləyib.

Xatırladaq ki, prezident seçkiləri ilə əlaqədar yeddi namizəd qeydə alınıb.

**AZƏRTAC**

# Dörd ünsürdən biri: Hava

Hava da dörd ünsürdən biridir, ancaq nə onun kimyəvi tərkibi, nə atmosfer qatları, nə də ozon dəlikləri söhbətin məzmununa daxil deyil. Heç yaxın da gəlmir. Sadəcə hava - vahid, artıq “vətəndaşlıq” hüququ qazanmış və öz varlığını tanıtdırmış məfhumdur.

Hava azadlıqla bir bənzəyiş, assosiasiya yaradır. Sanki molekullar da burada azadlıqdadır: bir-birindən aralı, sərbəst dolaşırlar. Hava hara istəyir dolur, hansı formanı istəyir alır. O istər qızılı zəmi olsun, istər yamyaşıl çəmən, istərsə də xarabalıq - fərqi yoxdur, üzərindən əsib keçir. O özü yüklənmir, hansı an haradadırsa, odur, oradan xəbər verir, sonra götürdüyünü harasa atıb başqa bir şeyi götürüb qaçır. Hava heç nəyi özündə saxlamır, heç nə orada dayanmır, durmur. Amma qarşısına keçən nə varsa, götürüb hara isə aparır, çatdırır. Təsadüfi deyil ki, özündə bu keyfiyyətləri daşıyan insanı da bəzən havaya bənzədirlər və bu “havalanan” insanın başqalarından üstün cəhəti, yəqin ki, onun özünü azad hiss etməsidir.




Hava ünsürlər arasında ən yüngülüdür. Onun ağırlığını heç kim hiss eləmir, varlığı heç kimin yerini dar etmir. “Qonduğu” yerdə iz qoymur, onda da iz qoymaq olmur. Onun varlığı normal halından çıxanda hiss olunur: külək olub əsəndə, meh olub çiçəkləri titrədəndə. Sanki onun varlığı ilə yoxluğu eynidir. Bəzən onu boşluğa da bənzədirlər. Təbii ki, bunlar fərqlidir. Onun yoxluğu saniyələr içində özünü büruzə verir. Onu nəyə isə bənzətmək çətindir. Amma madam ki var, deməli, müqayisəsi də olmalıdır. Və onun ancaq bir bənzəri tapılar - əlaqə...

Güclü əsib daşı-ağacı yerindən qoparmağı, sarsılmaz şeyləri uçurtmağı sel də bacarır, od da, torpaq da. Havanın bacarığı isə gözlə görülməyən, əllə tutulmayan şeyləri daşıya bilməsidir. Çiçəklərin ətrini, rayihəsini havadan başqa nə ətrafa yaya bilər ki? Səsi havadan başqa nə uzaqlara çatdıra bilər? Rəngləri olduğu kimi, qarışdırmadan çatdırmağı, günəşin şüalarını yağışın damlaları ilə görüşdürüb yeddi rəngə salmağı havadan başqa nə bacarar? Hava fiziki təsviri, maddi varlığı olmayanlara sanki varlıq verir, onları sahibindən alıb hara isə çatdırmağa kömək göstərir, onların hərəkətini təmin edir.

Hava həm də insanın mənəvi aləmi ilə zahiri dünyası arasında əlaqədir. Amma burada da “daşıdığı”, “ötürdüyü” şeylər sözə, hərflərə sığmayanlardır. Dərin, odlu bir ah dağlar boyda dərdin narahat bir zərrəsidir, nəfəs onu ürəkdən çıxardır ki, insan bir az yüngülləşsin.

İnsan heyrətlə içini çəkəndə hava həmin heyrəti doldurur damarlara ki, bütün bədənə yayılsın, insan bütün varlığı ilə onu hiss eləsin: rəngi qaçsın, səsi titrəsin, əli əssin.

İnsan təəccübdən nəfəsini içinə qısanda hava onun içi ilə zahiri arasındakı disbalansı gizlədir...

Bəzən nəfəsin, havanın saxladığı şey o qədər ağır olur ki, torpaq bədən ona dözmür və onu gözlərdən süzülən damcılara çevirir, ya bir şeirin misralarına, ya bir musiqinin sədasına, ya bir rəssamin rənglərinə “tökür”. Hava isə bütün bunları sadəcə daşıyır, çatdırır, özü isə onlara qarışmır, hiss etmir.

Havanın daşıdığı ən önəmli şeylərdən biri də yenə maddi varlığı olmayan, amma maddiyyata varlıq verən bir şeydir - həyat... İstər ən uca zirvədə olsun, istər ən əngin suların dibində, istərsə də yeddiqat torpağın altında, hansı vasitə ilə olursa olsun, özünü ora çatdıra bilirsə, daşıdığı bu əmanəti - həyatı sahibinə verir. Bu, zirvələrdə dolaşan quş da ola bilər, okeanlarda üzən balıq da, torpağın altından işığa can atan toxum da. Su da, torpaq da öz sakinlərini yaşatmaq üçün havanın gətirdiyi həyata möhtacdır. Hətta özündənrazı, lovğa od da havanın “havasına” oynamağa məcburdur.

Hava yeganə ünsürdür ki, həm maddi dünyada var, həm ilahi. Əslində, hava bu ikisi arasında yeganə (!) “əlaqədir”. Bu “hava”nın adı ruhdur. Allah torpaq bədənə ruh üfürəndə ona ancaq həyat vermir, həm də adlar öyrədir, əmanətini etibar edir.

Maddi dünyanın çərçivələrindən yorulan, boğulan insan yenə ruhu ilə fərqli bir dünyaya ucala bilir.

Ruh - azadlıqdır. Azadlıq isə sənlə “mən”in arasında əlaqədir. Sən - sosial varlıq olaraq “mən”ə - ilahi varlığa çatmaq üçün azadlığın içindən keçməlisən.

**Könül BÜNYADZADƏ,**
**AMEA-nın müxbir üzvü.**

# Gənclər arasında peşələrə maraq artır



Kürdəmir respublikamızın aran zonasında yerləşən iri kənd təsərrüfatı rayonlarındandır. Əhali illər uzunu pambıqçılıq, üzümçülük, taxılçılıqla məşğul olmuş, mal-qara saxlayıb halal ruzilərini torpaqdan, təsərrüfatdan qazanmışlar. Ölkədə aparılan geniş abadlıq, quruculuq işləri rayonda aqrar sahə ilə yanaşı sənayeyönümlü müəssisələrin də meydana gəlməsinə imkan yaratmışdır. İndi Kürdəmirdə iri süd və taxıl kombinatları, şirə və şərab zavodları, digər müəssisələr fəaliyyət göstərir. Təbii ki, istər aqrar sahədə, istər fabrik və zavodlarda yeni iş yerləri açılır, ixtisaslı mütəxəssislərə, peşə sahibi olan insanlara tələbat artır. Gənclərin peşələrə yiyələnmələrində rayonda fəaliyyət göstərən Kürdəmir Peşə Liseyi zəngin təcrübəyə malikdir. Müxtəlif vaxtlarda liseyi bitirən yüzlərlə kürdəmirli indi müxtəlif təsərrüfat sahələrində çalışır, rayonda öz peşələrinin ustası kimi tanınırlar.

Müsahibimiz **liseyin direktoru Azər Hüseynovla** söhbət zamanı öyrənirik ki, təhsil ocağında bir vaxtlar möhkəm baza olmuş, istehsalat təlimi və təcrübə məqsədi ilə bura torpaq sahəsi ayrılmış, peşə məktəbi müxtəlif texnika və avadanlıqlarla təmin edilmişdir. Ərazi rayon mərkəzində peşə şəhərciyi kimi tanınmışdır. Tədris və təcrübə korpusları, yataqxana, yeməkxana, digər yardımçı tikililər peşə hazırlığının keyfiyyətinə müsbət təsir göstərmişdir. Torpaqlarımızın iyirmi faizi erməni qəsbkarları tərəfindən işğal olunandan sonra soydaşlarımızın bir hissəsi Kürdəmirə pənah gətirmiş, müvəqqəti olaraq liseyin yataqxanasında, tədris korpusunda məskunlaşmışlar. Liseyin fəaliyyətində müəyyən çətinliklər yaransa da, tədris ocağı fəaliyyətinə ara verməmiş, gənclərin peşələrə mükəmməl yiyələnmələri üçün bütün imkanlardan istifadə etmişdir. Azər müəllim deyir:

- Çətinliklə üzləşsək də ruhdan düşmürdük. Bilirdik ki, daima iqtisadi inkişafda olan dövlətimiz qaçqın soydaşlarımıza qayğı və diqqətini əsirgəməyəcək, onların mənzil-məişət şəraitini yaxşılaşadıracaq. İndi həmin günlər uzaqda deyil. Yaxın vaxtlarda rayonumuzun ərazisində ayrılan torpaq sahəsində qaçqın soydaşlarımız üçün hər cür infrastruktura malik şəhərciyin salınmasına start veriləcək, Peşə Liseyi əvvəlki fəaliyyət rejimini bərpa edəcək.

Bütün bunlara baxmayaraq kürdəmirlilər bu gün də liseyin işindən razılıq edirlər. Hazırda liseydə 7 ixtisas üzrə 8 qrup fəaliyyət göstərir. Qruplardan 7-si üç illik, 1-i bir illik təhsil bazasına malikdir. Liseydə öyrədilən peşələr Kürdəmirin bu günkü tələbatına tam cavab verir. Belə ki, gənclər “Üzümçü usta”, ”Pambıqçı”, “Əllə elektrik qaynaqçısı”, “Geniş profilli traktor maşinist təmiri çilingəri”, “Meliorasiya işləri üzrə təmirçi çilingər”, “Heyvandarlıq komplekslərinin və ferma operatoru” və digər peşələrə yiyələnirlər.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına əsasən Kürdəmirdə geniş tədbirlər planı həyata keçiriləcəkdir. Azər müəllim qəzetimiz vasitəsi ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyindən liseydə yeni ixtisasların vacibliyini nəzərə alıb, bu ixtisaslar üzrə qrupların açılmasına köməklik göstərilməsi arzusunda olduğunu bildirir.

**Tofiq HÜSEYN,**
**“Respublika”.**

# LERİK: ƏHALİNİN TİBBİ MÜAYİNƏSİ UĞURLA DAVAM ETDİRİLİR



Lerik uzunömürlülər diyarı kimi tanınır. Rayonda planetimizin ən uzunömürlü insanları hesab edilən Şirəli Müslümov 168 il, Mahmud Eyvazov 150, Məcid Ağayev 145, Qızıl Quliyeva isə 134 il yaşayıblar.

Akademik Mirəli Qaşqayın bu barədə fikri çox maraqlıdır: “Nə üçün Lerik uzunömürlülər diyarı sayılır? Bu, onların qoçaqlığıdırmı? Əsla! Çünki sağlam təbiətdə yaşayırlar”.

Azərbaycan Prezidenti cənab İlham Əliyev 2010-cu il iyun ayının 25-də Lerik rayonuna növbəti səfəri çərçivəsində rayon mərkəzi xəstəxanasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsinə həsr olunmuş mərasimdə iştirak etmişdir. Cənab Prezident 90 çarpayılıq xəstəxanada yaradılmış müasir, nümunəvi şəraitlə yaxından tanış olmuş, rayon ictimaiyyətinin nümayəndələrilə görüşündə bu barədə demişdir: “Bax, bu gözəl xəstəxana indi xidmət göstərəcəkdir. Düzdür, leriklilər çox sağlamdırlar və onların səhhətində heç bir problem yoxdur. Onlar dünya miqyasında məşhurdurlar, uzunömürlüdürlər, — fiziki cəhətdən çox sağlamdırlar. Amma, hər ehtimala qarşı, xəstəxana da olmalıdır. Burada da bütün lazımi avadanlıq quraşdırılıb. Ən müasir aparatlar, texnika—yəni burada bütün tibbi xidmət göstəilməlidir. Mən tövsiyə edirəm ki, hər bir vətəndaş ildə bir dəfə müayinədən keçsin...”.

Möhtərəm Prezidentimizin tapşırığı əsasında hər il olduğu kimi, bu il də rayon sakinlərinin kütləvi dispanserizasiyası uğurla aparılır. Səhiyyə Nazirliyinin və Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə əhalinin kütləvi tibbi müayinəsi yüksək səviyyədə təşkil edilib.

Rayonun ərazisində 78 səhiyyə müəssisəsi, o cümlədən rayon mərkəzi xəstəxanası, poliklinika, 6 kənd xəstəxanası, 19 həkim və 51 tibb məntəqəsi fəaliyyət göstərir. Son illər rayonda təcrübəli, peşəkar səhiyyə kollektivi formalaşıb. Rayonun tibb müəssisələri öz işini günün tələbləri səviyyəsində qurur. Əhalinin həkimlərə inamı, etibarı artıb.

Səhiyyə ocaqlarında çalışan tibb işçilərinin səyləri müayinələri vaxtında həyata keçirmək üçün səfərbər edilib. **Lerik Rayon Mərkəzi Xəstəxanasının baş həkimi, tibb elmləri üzrə fəlsəfə doktoru, “Səhiyyə əlaçısı” Mübariz Ağayev** söhbət zamanı dedi:

—Ölkə Prezidentinin tapşırığı ilə fevral ayının 12-dən başlayaraq rayonun səhiyyə müəssisələrində əhalinin tibbi müayinəsi keçirilir. İnsanların sağlam həyat tərzi yaşamasına yönələn bu mühüm aksiya ixtisaslı həkimlər tərəfindən yüksək səviyyədə, uğurla aparılır.

Heç kim müayinədən kənarda qalmayıb. Yataq xəstələri, qocalar səyyar həkim briqadası tərəfindən yerindəcə müayinə olunurlar. Həftədə bir gün qrafik əsasında həkim briqadaları kəndlərə çıxır, daşınan USM, rentgen aparatı və digər tibbi avadanlıqların köməyilə sakinləri müayinə edirlər.

Uşaqların sağlamlığının qorunması dövlət siyasətinin ən prioritet istiqamətlərindən biridir. Ölkəmizdə “Uşaqların icbarı dispanserizasiyası haqqında qanun” və müvafiq Dövlət Proqramı qəbul edilib. Proqramın icrası ilə əlaqədar rayon mərkəzi xəstəxanasında ixtisaslı həkim briqadası ayrılıb, tibb müəssisələrinin rəhbərləri üçün treninqlər keçirilib. Uşaqlar sağlamlıq dərəcəsinə görə qruplara bölunüb. Onlar məcburi dispanserizasiyadan keçirilərək qeydiyyata götürülürlər.

Leriklilər dövlətimizin başçısının nəcib, humanist təşəbbüsünü ürəkdən alqışlayır. Rayon mərkəzindən 25 kilometr uzaqda yerləşən Lərmərud kəndinin sakini Gilas Aslanova bütün müayinələrdən keçdiyini, həkimlərdən və orta tibb işçilərindən razı qaldığını bildirdi. İnsanların sağlamlığının qorunmasına göstərilən yüksək diqqətə görə kənd sakinləri adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə etdi.

Söhbət etdiyimiz digər xəstələr də keçirilən aksiyanı bəyəndiklərini, əhalinin pulsuz müayinəsi üçün hər cür şərait yaradıldığını qeyd etdilər.

Baş həkim Mübariz Ağayev sağlamlıq aksiyasının vaxtında, mütəşəkkil və keyfiyyətlə aparılmasına daim nəzarət olunduğunu, bu vacib və əhəmiyyətli tədbirin may ayının 12-dək davam edəcəyini, uğurla başa çatacağını əminliklə söylədi.

**Əlisəfa HƏSƏNOV,**
**“Respublika”.**

*Dövlət Sərhəd Xidməti*

## Dənizdə qalmış balıqçı qayığı xilas edilmişdir

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

2018-ci ilin 09 mart tarixində Astara reydində "ŞA-284" bort nömrəli "Yamaha-85" mühərrikli üzmə vasitəsinin 2 nəfərdən ibarət heyəti tərəfindən DSX Sahil Mühafizəsinin "Kələdəhnə" sahil nəzarəti məntəqəsinə mühərrikdə yaranmış nasazlıq səbəbindən xilas edilmələri barədə müraciət edilmişdir.

Sahil nəzarəti məntəqəsi tərəfindən cənub istiqamətində xidmətdə olan sərhəd gözətçi gəmisi ilə əlaqə saxlanılaraq təhlükədə olan üzmə vasitəsinin koordinatları ötürülmüşdür.

DSX Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisinin həyata keçirdiyi axtarış-xilasetmə tədbirləri nəticəsində texniki nasazlıq səbəbindən sahildən 2,5 mil məsafədə dənizdə qalmış balıqçı qayığı aşkar edilmiş, küləkli hava şəraitində yedəyə alınaraq sahilə çıxarılmışdır.

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslərin Astara rayonu Şahağacı kənd sakinləri Quliyev Həsənqulu Ağaqulu oğlu və Nəhmətov Nail Feyzulla oğlu olmaları müəyyən olunmuşdur.

## Sərhəd pozucularının qarşısı alındı

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi istiqamətində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir.

2018-ci il martın 10-da 2 halda Azərbaycan Respublikasının ərazisinə narkotik vasitələrin qaçaqmal yolu ilə qanunsuz keçirilməsinin qarşısı alınmışdır. Belə ki, Lənkəran sərhəd dəstəsinin Astara rayonu ərazisindəki sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan 2 nəfər şəxsin qarşısı alınmış, sərhəd pozucuları qanunsuz yolla dövlət sərhədindən keçirmək istədikləri qaçaqmalı ataraq havanın qaranlıq və ərazinin sıx meşəlik olmasından istifadə etməklə geriyə qaçmışlar. Hadisə yerinə baxış zamanı sərhəd pozucularına məxsus 535 qram narkotik vasitə olan marixuana aşkar olunaraq götürülmüşdür.

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçı gəmisi tərəfindən Astara rayonunun Şahağacı kəndi istiqamətində Azərbaycan Respublikasının sərhəd sularında rejimə nəzarət həyata keçilərkən su səthində kustar üsulla hazırlanmış buy, buya bağlanılmış kisədə isə 2200 qram narkotik vasitə olan heroin aşkar olunaraq dövriyyədən çıxarılmışdır.

Qeyd olunan faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin əməlləri ifşa edilib

**Əhalinin sosial rifahının yaxşılaşdırılması, sağlamlığının qorunması, hər bir vətəndaşın fiziki və ruhi sağlamlığının mühafizəsi və tibbi yardımla təminatına yönəldilmiş tibbi-sosial xarakterli islahatlar və dövlət proqramlarının uğurlu icrası bu sahənin ölkədə prioritet məsələlər sırasına qaldırılmasının bariz nümunəsidir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, son dövrlər ayrı-ayrı həkim-kosmetoloqlar tərəfindən istifadə zamanı insan sağlamlığına bərpaolunmaz zərər vurmaqla əhali arasında geniş narazılığa səbəb olan saxta, mənşəyi məlum olmayan, kustar üsulla hazırlanmış, habelə dövlət qeydiyyatından keçməyən məişətdə "botoks" kimi tanınan dərman vasitələrinin və kosmetik preparatların istehsalı, satışı və idxalı barədə daxil olmuş çoxsaylı müraciətlər əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 200-1.2.3-cü (dərman vasitələrinin qanunsuz dövriyyəsi külli miqdarda törədildikdə) və 206.1-ci (qaçaqmalçılıq) maddələri ilə cinayət işi başlanıb.

Aparılmış ilkin istintaq-əməliyyat tədbirləri ilə İran İslam Respublikasının vətəndaşları Cahani Hiveh Chi Hamidin və Faxri Dameşgiyeh Xosronun Bakıda yaşadıqları ünvanların müəyyənləşdirilərək baxış keçirilən zaman həmin şəxslərin bu qəbildən qanunazidd əməlləri ifşa olunub.

Belə ki, Cahani Hiveh Chi Hamidin yaşadığı ünvanda keçirilmiş baxış zamanı üzərində "Canotix 50 units" sözləri yazılmış və satış qiyməti 80 manat təşkil edən 52 ədəd dərman preparatı, "Canotix 100 units" sözləri yazılmış və qiyməti 110 manat təşkil edən 66 ədəd dərman vasitələri və üzərində hər hansı etiket olmayan 196 ədəd olmaqla, ümumilikdə 314 ədəd şüşə konteynerdə qablaşdırılmış dərman vasitəsi, habelə həmin qablaşdırmaların üzərinə yerləşdirmək üçün istifadə edilən yapışqan etiketlər və digər dərman preparatları aşkarlanaraq götürülüb.

İstintaq-əməliyyat tədbirləri ilə müəyyən olunub ki, hər iki şəxs həmin dərman vasitələrini gömrük orqanlarına bəyan etmədən ölkə ərazisinə gətiriblər. Bundan başqa, Cahani Hiveh Chi Hamid kuryer xidmətlərindən istifadə etdiyi qohumu - Bakı şəhər sakini Qədirov İlqar Variş oğlunun 99-KP-072 dövlət qeydiyyat nişanlı "Chevrolet Cruze" markalı avtomobilinə baxış keçirilərkən "Canotix 50 units" sözləri yazılmış 8 ədəd və "Canotix 100 units" sözləri yazılmış 7 ədəd dərman preparatları aşkarlanaraq götürülüb.

Aparılmış istintaqla, həmçinin müəyyən edilib ki, İran vətəndaşı Qahremani Hafez Habib "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin tələbinə əsasən, dərman vasitələrinin Azərbaycan Respublikasına idxalına, Azərbaycan Respublikası ərazisində istehsalına, satışına və istifadəsinə yalnız Səhiyyə Nazirliyi və ya onun səlahiyyət verdiyi qurum tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yol verildiyi halda, qanunun həmin tələbini pozaraq, Tehran-Bakı-Tehran marşrutu üzrə idarə etdiyi "Scania" markalı 86b666-10 qeydiyyat nişanlı sərnişin avtobusu ilə 2018-ci il fevralın 21-də saat 11 radələrində İrandan Azərbaycana Astara gömrük keçid məntəqəsindən külli miqdarda malları - 100 ədəd "Canotix 50 units" dərman preparatını sellofan torbaya bükərək avtobusun salonunda gizlədib gömrük nəzarətindən gizli keçirməklə qaçaqmalçılıq edib.

İstintaqla daha sonra müəyyən olunub ki, Abizadə İmran İbrahim oğlu qanunsuz olaraq dərman preparatları və kosmetoloji vasitələrin satışı ilə məşğul olmaq üçün 2017-ci ilin noyabrından 2018-ci il fevralın 20-dək olan dövrdə müxtəlif vaxtlarda İrandan Azərbaycana Astara gömrük keçid məntəqəsindən gömrük nəzarətindən hissə-hissə gizli keçirdiyi külli miqdarda malları - ümumilikdə 16 min 515 manat dəyərində 245 ədəd mənşəyi məlum olmayan "Canotix 100 units" dərman preparatını Bakı şəhər sakini Qələndərova Zəkiyyə Qəzənfər qızına satıb.

Faktlarla Cahani Hiveh Chi Hamid, Faxri Dameşgiyeh Xosro, Qahremani Hafez Habib və Abizadə İmran İbrahim oğlu dərman vasitələrinin külli miqdarda qanunsuz dövriyyəsi ilə məşğul olmaqla və Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə malları və digər əşyaları külli miqdarda keçirmələrinə şübhələr üçün əsaslar müəyyən edildiyindən Cinayət Məcəlləsinin həmin maddələri ilə ittiham elan olunub. Cahani Hiveh Chi Hamid və Abizadə İmran İbrahim oğlunun barəsində polisin nəzarəti altına verme, Faxri Dameşgiyeh Xhosronun və Qahremani Hafez Habib barəsində isə həbs növündə qətimkan tədbirləri seçilib.

Cinayət işləri üzrə hərtərəfli, obyektiv və tam istintaq aparılmasının təmin edilməsi üçün həmin şəxslərdən götürülmüş müxtəlif növ dərman preparatlarının standartlara uyğun olub-olmamasının aydınlaşdırılması və həmin dərman vasitələrinin əldə edilmə mənbəyinin, satışın həyata keçirildiyi dairənin müəyyənləşdirilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirlərinin keçirilməsi təmin edilməklə, bu növ qanunazidd əməllərə məruz qalmış vətəndaşlardan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə müraciət etmələri xahiş olunur.

**AZƏRTAC**




### ❑ "ZEYTUN BUDAĞI" ƏMƏLİYYATI TAM GÜCÜ İLƏ DAVAM EDİR



"Zeytun budağı" əməliyyatının 52-ci günündə məhv edilən PYD/YPG terrorçularının sayı 3347 nəfərə çatıb. "APA"nın məlumatına görə, bu barədə Türkiyə Silahlı Qüvvələri açıqlama yayıb.

Verilən xəbərə görə, Afrin yaxınlığında 16 kənd terrorçulardan təmizlənib. Beləliklə, Suriyanın şimalında PYD/YPG-dən təmizlənən yaşayış məntəqələrinin sayı 151-ə çatıb.

Eyni zamanda, Afrinin mərkəzini mühasirədə saxlayan Türkiyə Silahlı Qüvvələri və Azad Suriya Ordusu döyüşçüləri şəhərin yaxınlığındakı Bableit aeroportunu nəzarətə götürüb.

Bundan başqa, terrorçuların mövqe tutduğu bir neçə strateji yüksəklik də ələ keçirilib. Onlardan ən əhəmiyyətlisi Bocite dağıdır. Ələ keçirilən yüksəkliklərdə böyük mağaralarda park edilmiş avtomobillər və Afrinin mərkəzinə aparan tunellər aşkar olunub.

Həmçinin xəbər verilir ki, "Afrin əməliyyatı"nın az itki ilə yekunlaşması məqsədilə əraziyə minaların zərərsizləşdirilməsi üçün 50 ədəd xüsusi texnika gətirilib.

Bu əməliyyatlar nəticəsində Afrinin mühasirəsi 3 ayrı istiqamətdən möhkəmləndirilib. Şəhərin cənub istiqaməti isə dinc əhalinin çıxması üçün açıq saxlanılıb. Afrindəki terror hədəfləri isə dəqiq raket zərbələri ilə vurulur. Bu zərbələrdən sonra şəhərdən çox sayda terrorçunun qaçmaq cəhdlərinin qarşısı helikopterlər vasitəsilə alınır. Onların hərəkət istiqamətləri bombalanır.

Bununla yanaşı, bildirilir ki, Afrin yaxınlığındakı böyük zeytun bağlarında gizlənməyə çalışan terrorçular hava zərbələri ilə tək-tək məhv edilir.

### ❑ ÇİN LİDERİ VƏZİFƏSİNDƏ ÖMÜRLÜK QALACAQ



Çin Konstitusiyasında dəyişiklik edilib. "APA"nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, Çin Xalq Nümayəndələri Yığıncağı bir şəxsin iki dəfədən artıq Çin Xalq Respublikasının sədri və müavini postlarına seçilməsinə qadağanı nəzərdə tutan Konstitusiya müddəasının ləğv edilməsini dəstəkləyib.

Məlumata görə, indiyə qədər Konstitusiyaya əsasən eyni şəxslər Çin Xalq Respublikasının sədri və müavini postuna iki dəfədən artıq seçilə bilməzdi.

Bununla da, Çin Xalq Respublikasının sədri Si Cinpinin müddətsiz olaraq vəzifəsini icra etməsinə heç bir maneə qalmayıb. Paytaxt Pekində Böyük Xalq Salonunda keçirilən səsvermədə konstitusiyaya dəyişiklik 6 əleyhinə olmaqla, 2958 nümayəndənin səs çoxluğu ilə qəbul olunub.

Beləliklə, bundan sonra Çin Xalq Respublikasının sədri Çin Xalq Nümayəndələri Yığıncağında hər dəfə 5 il müddətində olmaqla, məhdudiyyət olmadan seçilə biləcək.

Konstitusiyaya edilən digər düzəlişdə isə qeyd edilib ki, Çin yeni dövrdə Si Cinpinin sosializmin Çin xüsusiyyətləri ideyasına uyğun inkişaf edəcək.

Mao Tsedundan sonra Çinin ən güclü lideri olan Si Cinpin Çin Kommunist Partiyasının sədri və Mərkəzi Silahlı Qüvvələrin Ali Baş Komandanı vəzifələrini də icra edir.

Qeyd edək ki, Çin Kommunist Partiyasında ən yüksək vəzifə sayılan partiya sədrinin 10 ildən bir təyin olunması barədə maddə 1982-ci ildə Konstitusiyaya daxil edilib.

### ❑ PUTİNİN 73 FAİZƏ QƏDƏR SƏS TOPLAYACAĞI EHTİMAL OLUNUR



Ümumrusiya İctimai Rəyin Öyrənilməsi Mərkəz (VTSİOM) martın 18-də keçiriləcək prezident seçkilərində iştirak edən namizədlərin reytinqini açıqlayıb. "APA"nın məlumatına görə, VTSİOM-un baş direktoru Valeri Fyodorov reytinq cədvəlini martın 5-7-də və 9-da keçirdikləri sorğu əsasında hazırladıqlarını qeyd edib.

Verilən xəbərə görə, sözügedən reytinqə hazırki prezident Vladimir Putin liderlik edir. Respondentlərin 69 faizi ona səs verəcəyini bildirib. Seçkilərdə Putinin 69-73 faiz səs toplayacağı proqnozlaşdırılır.

Rəyi soruşulanların 7 faizi Kommunist Partiyasının namizədi, iş adamı Pavel Qrudininə səs verəcəyini bildirib. Liberal-Demokrat Partiyasının namizədi Vladimir Jirinovski 5 faizlə üçüncü, Vətəndaş Təşəbbüsü Partiyasının namizədi, telejurnalist Kseniya Sobçak 2 faizlə dördüncü, "Yabloko" Partiyasının namizədi Qriqori Yavlinski isə 1 faizlə beşinci yerdə qərarlaşıb.

Sorğunun nəticələrinə görə, digər namizədlər - Rusiya Ümumxalq Birliyi Partiyasının namizədi Sergey Baburin, İnkişaf Partiyasının sədri Boris Titov və Rusiya Kommunistləri Partiyasının sədri Maksim Suraykin 1 faizdən aşağı reytinqə malikdir.

Bununla yanaşı, VTSİOM-un məlumatına görə, Qrudininin 10-14 faiz, Jirinovskinin 8-12 faiz, Sobçakın 2-3 faiz, Yavlinskinin 1-2 faiz, Baburin, Titov və Suraykinin hərəsinin 1 faizdən aşağı səs toplayacaqları proqnozlaşdırılır.

### ❑ KİM ÇEN IN ABŞ-la SÜLH SAZİŞİ İMZALAYA BİLƏR



Şimali Koreya lideri Kim Çen In ABŞ-la sülh sazişi imzalamaq və iki ölkə arasında diplomatik münasibətlər qurmaq niyyətindədir. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Cənubi Koreyanın "Tona İlbo" nəşrinə ölkə prezidenti administrasiyasındakı mənbə bildirib.

Mənbə qeyd edib ki, ABŞ-la münasibətləri normallaşdırmaq niyyətini Kim Çen In Cənubi Koreyanın nümayəndə heyəti ilə Pxenyanda keçirdiyi görüşdə açıqlayıb.

"Kim Çen Inın yekun məqsədi ABŞ-la sülh sazişinin imzalanması, iki ölkə arasında diplomatik münasibətlərin qurulması və Pxenyanda ABŞ səfirliyinin açılmasıdır", - deyə mənbə qeyd edib.

Bundan əvvəl Şimali Koreya lideri ABŞ prezidenti Donald Trampla görüşməyi təklif edib. Vaşinqton təkliflə razılaşıb. Görüşün vaxtı və yeri razılaşdırılacaq.

### ❑ RUSİYA: ABŞ SURİYANI PARÇALAMAĞA ÇALIŞIR



ABŞ Suriyanın suverenliyi və bütövlüyünün qorunmasına dair vədlərə baxmayaraq, ölkəni parçalamağa çalışır. "APA"nın verdiyi xəbərinə görə, bu barədə "Krasnaya Zvezda" nəşrinə müsahibəsində Rusiyanın müdafiə nazirinin müavini general-polkovnik Aleksandr Fomin bildirib.

Məlumata görə, ABŞ prezidenti Donald Tramp İsrailin baş naziri Benyamin Netanyahu ilə görüşü zamanı Fransa, Almaniya və Böyük Britaniyanın "əhəmiyyətli dəyişikliklər" etməyəcəkləri təqdirdə ölkəsinin nüvə sazişindən çıxacağı ilə hədələyib.

Aleksandr Fomin deyib: "Amerikalıların niyyəti bəllidir. Suriyanın suverenliyi və bütövlüyünün qorunmasına dair vədlərinə baxmayaraq, ölkəni parçalamaq niyyətindədirlər. ABŞ-ın tabeçiliyində olan qüvvələr İŞİD terrorçuları ilə birləşiblər. Bu, amerikalıların rəhbərliyi və nəzarəti altında baş verir".

Eyni zamanda, nazir müavini qeyd edib ki, hazırda ABŞ separatçı niyyətli milli azlıqlara hərtərəfli dəstək göstərir.

"Amerikalılar kürdlər də daxil olmaqla milli azlıqların silahlı dəstələri ilə müəyyən oyun aparırlar. 40 minədək üzvü olan hansısa silahlı birləşmələrin nəzarəti altında təhlükəsizlik zonaları yaradırlar", - deyə Aleksandr Fomin əlavə edib.

### ❑ ALMANİYA DİN-i QAÇQINLARIN DEPORTASİYANI SÜRƏTLƏNDİRƏCƏK



Bu həftə Almaniyada koalisiya hökumətində daxili işlər naziri postuna təsdiq ediləcək Horst Zeexofer ölkədə qayda-qanunun təmin edilməsi, o cümlədən qaçqınların qəbulu ilə bağlı planını açıqlayıb. "APA"nın məlumatına görə, daxili işlər naziri təyinatı ilə əlaqədar Xristian-Demokratik İttifaqın sədri postunu tərk edəcək Horst Zeexofer Almaniyanın kosmopolit və liberal ölkə olaraq qalmaq istədiyini bildirib.

Bununla belə, H.Zeexofer qeyd edib ki, əgər söhbət vətəndaşların müdafiəsindən gedirsə, o halda güclü dövlət lazımdır və o, bu istiqamətdə əlindən gələni əsirgəməyəcək.

Bavariyanın baş naziri olduğu dövrləri xatırladan H.Zeexofer Bavariyanın 2015-ci ildə ən böyük qaçqın dalğası ilə üzləşdiyini qeyd edib. Onun sözlərinə görə, bu gün Bavariya Avropanın ən təhlükəsiz regionlarından biridir və bu, bütövlükdə Almaniya üçün xarakterik olmalıdır.

Eyni zamanda, Horst Zeexoferin daxili işlər naziri kimi, hazırladığı planda həm qaçqın statusunun verilməsi, həm də deportasiya posedurlarının sürətləndirilməsi əksini tapıb.

H.Zeexofer bildirib ki, qaçqın statusunun verilməsi bir il uzanmamalı, bir neçə aya həllini tapmalı və deportasiya prosesi əhəmiyyətli dərəcədə artmalıdır. O əlavə edib ki, bu zaman qayda-qanunları pozanlar və cinayətkarların deportasiyasına xüsusi diqqət yetirilməlidir. ■

---

TƏKRAR

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti
Bərk inventarların satın alınması üzrə
AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının maliyyə və texniki imkanları, istehsalçı və ya onun rəsmi distribyuterinin olması, anoloji müqavilələrin icrasına dair təcrübəsi, təklifin texniki tələblərə uyğunluğu, texniki xidmətlərin göstərilməsi, istismara verilən zəmanət müddəti.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba 250 (iki yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə Bakı şəhəri, Binəqədi rayonu 3123-cü məhəllə, Binəqədi şossesi 202 (əlaqələndirici şəxs: Gülsüm İsmayılova, Telefon: (+99412) 5656118, daxili 255) ünvanından ala bilərlər.

Hesab: AZ38CTRE00000000000004518570
VÖEN: 1700760271
Bank: DXA
Filialın kodu: 210005
VÖEN: 1401555071
SWİFT: CTREAZ22
M/h: AZ41NABZ01360100000000003944
Büdcə səviyyə kodu: 7
Büdcə təsnifat kodu: 142340.

Malgödərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1.Tenderdə iştirak etmək üçün yazılı ərizə;

2.İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

3.Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);

4.Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 60 (altmış) bank günü çox olmalıdır);

5.Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;

Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;

Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 6 aprel 2018-ci il saat 10.00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 17 aprel 2018-ci il, saat 10.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 18 aprel 2018-ci il tarixində saat 15.00-da Bakı şəhəri, Binəqədi şossesi 202, Dövlət Miqrasiya Xidmətinin inzibati binası ünvanında açılacaqdır.

Tender Komissiyası.

---

**DAŞKƏSƏN ŞƏHƏR YAŞILLAŞDIRMA İDARƏSİ 2018-ci İL ÜÇÜN**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

1. Xüsusi geyim formasının alınması
2. Avadanlıq və inventar alınması

Kotirovka 17 mart 2018-ci il tarixədək qəbul edilir.

**Ünvan:** *Daşkəsən şəhəri, S.Vurğun küçəsi 9*

Tel.: *022-215-56-30*

**TENDER KOMİSSİYASI.**

---

**DAŞKƏSƏN ŞƏHƏR KOMMUNAL MÜƏSSİSƏLƏRİ KOMBİNATI 2018-ci İL ÜÇÜN**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

1. Xüsusi geyim formasının alınması
2. Avadanlıq və inventar alınması

Kotirovka 17 mart 2018-ci il tarixədək qəbul edilir.

**Ünvan:** *Daşkəsən şəhəri, S.Vurğun küçəsi 9*

Tel.: *022-215-48-39*

**TENDER KOMİSSİYASI.**

---

**DAŞKƏSƏN ŞƏHƏR NÜMAYƏNDƏLİYİ 2018-ci İL ÜÇÜN**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

**1.** Abadlaşdırma və təmir işlərinin görülməsi.
Kotirovka 17 mart 2018-ci il tarixədək qəbul edilir.
**Ünvan:** *Daşkəsən şəhəri, Heydər Əliyev meydanı 2*
**Tel.:** *022-215-57-354*

**TENDER KOMİSSİYASI.**

---

**Mingəçevir şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi 2018-ci il Mülki-Müdafiə Səfərbərlik Ehtiyyatları Anbarının təmir işlərini aparmaq üçün**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

İştirak etmək istəyənlər Mingəçevir şəhəri, H.Əliyev prospekti 28/12 ünvanına və 024 274 67 53 nömrəli telefonla Nağıyeva Tellər Cəbrayıl qızına müraciət edə bilərlər.

Kotirovka sorğusu üçün tələb olunan sənədləri 19.03.2018-ci il tarixədək yuxarıda göstərilən ünvana təqdim edə bilərlər.

---

**BİLDİRİŞ**

Bərdə Rayon İcra Hakimiyyəti Bərdə şəhəri İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 27 yanvar və 07 fevral 2018-ci il tarixlərində "Respublika" qəzetində dərc olunan LOT-1 Şəhərdə abadlıq işləri, LOT-2 Yolların əsaslı təmiri işləri, LOT-3 Mənzil fondunun əsaslı təmir işləri üzrə açıq tender zərflərinin açılış vaxtı 23 aprel 2018-ci il saat 16:00-a qədər uzadılsın.

**Tender Komissiyası.**

---

**"Bakı Metropoliteni" QSC**
**1 ədəd 500 kq-lıq şaxta tipli yükqaldırıcı qurğunun və 1 ədəd liftin satınalınması üzrə**

**AÇIQ TENDER ELAN EDİR**

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-00) ala bilərlər.

**LOT-1.** "Müdafiə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya mərkəzində quraşdırılması nəzərdə tutulan 1 ədəd 500 kq-lıq şaxta tipli yükqaldırıcı qurğunun və 1 ədəd liftin satın alınması, quraşdırılması, sazlanması və işə buraxılması".

**İştirak haqqı - LOT-1 - 300 manat**
**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 may 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 17 may 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 may 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**"BAKI METROPOLİTENİ" QSC TENDER KOMİSSİYASI.**

---

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Gəncə Şəhər Səhiyyə İdarəsi 2018-ci ildə Dəftərxana və təsərrüfat mallarının və mətbəə xərclərinin satınalınması ilə əlaqədar**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Sənədlər 16 mart 2018-cı il saat 16:00-dək Gəncə şəhər Səhiyyə İdarəsinə təqdim olunmalıdır.

**Ünvan:** *Gəncə şəhəri, Nizami prospekti 412.*

**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Radio Televiziya yayımı və Peyk rabitəsi İstehsalat Birliyi

# TELERADİO İB

## Respublikanın regionlarında rəqəmli ehtiyat şəbəkənin yaradılması və Bakı şəhəri və Abşeron yarımadasında dövlət, ictimai və özəl proqramların HD yayımının təmin edilməsi üçün tələb edilən avadanlıqların satınalınması üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT-1. Regionlarda rəqəmli ehtiyat şəbəkənin yaradılması məqsədilə analoq vericilərin rəqəmliyə çevrilməsi üçün tələb olunan ehtiyat hissələrinin (modulyator, süzgəc, proqram təminatı və s.) alınması**

**LOT-2. Bakı şəhəri və Abşeron yarımadasında dövlət, ictimai və özəl proqramların HD yayımının təmin edilməsi üçün Bakı Teleqüllə kompleksində 31 TVK, RMS 2,5-3 kVt DVB-T/T2 rəqəmli vericinin alınıb quraşdırılması**

Bu elanla Teleradio İB rəqəmli ehtiyat şəbəkənin yaradılması məqsədilə dayandırılmış analoq vericilərin rəqəmliyə çevrilməsi üçün tələb edilən hissələrin (modulyator, süzgəc, proqram təminatı və s.) və DVB-T/T2 rəqəmli vericilərin istehsalı, quraşdırılması, istismarı və satışı ilə məşğul olan təşkilatları, müəssisələri və şirkətləri tenderdə iştirak etməyə dəvət edir.

**Tenderdə iştirak etmək üçün müraciət edən şirkətlərə dair tələblər:**

- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı;
- maliyyə durumu qənaətbəxş olmalı;
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilmiş (və bu tenderin əsas şərtlər toplusu ilə daha ətraflı müəyyən edilmiş) müvafiq sahədə peşəkar və təcrübəli olmalı;
- texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı;
- vergilər və digər icbari analoji hökumət ödənişləri üzrə icra vaxtı keçmiş öhdəlikləri olmamalıdır.

**Tələb olunan sənədlər:**

Qeydiyyat üçün İddiaçılar aşağıdakı sənədləri 10 aprel 2018-ci il tarixdə, saat 17.00-a qədər (Tender təklifləri və Bank zəmanəti istisna olmaqla) Tender komissiyasına təqdim etməlidir:

- Tenderdə iştirak haqqında müraciəti;
- İddiaçının tam adı, hüququ statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;

Bu sənədlər təqdim edildikdən sonra Əsas Şərtlər Toplusunu (Azərbaycan və ya ingilis dilində) Bakı şəhəri A.Abbaszadə küç 2. ünvanında Tender Komissiyasından almaq olar.

İddiaçılar özləri haqqında aşağıdakı əlavə sənədləri tender prosedurunun başlanmasına ən azı 7 (yeddi) bank günü qalmış təqdim etməlidirlər:

- Son bir il ərzində görülmüş analoji işlər haqqında məlumat;
- İddiaçının hazırda məhkəmə proseslərində iştirak edib-etməməsi haqqında məlumat;
- İddiaçının son 1 il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;

**İştirak haqqı:**

İddiaçı tenderdə iştirak haqqı kimi (iştirak etdiyi **hər Lot üzrə**) Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Teleradio İB-nin aşağıdakı hesabına uyğun olaraq

1-ci lot üzrə 300 Avro,

2-ci lot üzrə 350 Avro,

(ödəniş günündə Mərkəzi Bankın məzənnəsinə uyğun məbləğdə AZN ilə) məbləğində vəsait ödəməlidir.

**ABB-ın "Abşeron" filialı**
**Kod: 805539**
**VÖEN: 9900001881**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**SWIFT IBAZAZ2X**
**Hesabın Adı: RADIO TELEVIZIYA YAYIMI VE PEYK RABITƏSI ISTEHSALAT BIRLIYI**
**VÖEN: 9900037841**
**İBAN №: AZ21IBAZ40050019441510154201 (AZN)**
**AZ88IBAZ40150019781510154201 (AVRO)**
**AZ11IBAZ40150018401510154201 (USD)**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Tender təklifinin qüvvədə olma müddəti** - Tender prosedurunun başlandığı gündən etibarən - 30 bank günü təşkil etməlidir.

**Tender təklifinin təminatı** - tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır və hər Lot üzrə təklifin ümumi qiymətinin azı 2 (iki) %-ni təşkil etməlidir.

**İşin görülmə yeri:** Azərbaycan Respublikası;

**İşin yerinə yetirilmə müddəti:** Müqavilə imzalandıqdan sonra 60 (altmış) təqvim günündən çox olmamaq şərti ilə İşin yerinə yetirilməsi nəzərdə tutulmalıdır.

**Təkliflər zərflərinin təqdim olunması:** İddiaçılar (hər Lot üzrə) Tender təklifini və Tender təklifinin təminatını (1 nüsxə əsli, 2 nüsxə surəti olmaqla) müvafiq qaydada möhürlənmiş zərflərdə 20.04.2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, A.Abbaszadə küçəsi, 2 ünvanında yerləşən Teleradio İB-yə (Ümumi şöbəyə) təqdim etməlidirlər. Göstərilən müddətdən sonra daxil olan təkliflər baxılmadan geri qaytarılacaqdır.

**Tender prosedurunun tarixi** - tender proseduru 23.04.2018-ci il tarixdə Bakı (Azərbaycan) vaxtı ilə saat 11:00-da Teleradio İB-nin iclas zalında (ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, A.Abbaszadə küçəsi, 2) başlayacaqdır.

Tender barədə əlavə məlumatlar almaq üçün maraqlı olanlar Teleradio İB-nə müraciət edə bilərlər:

Telefonlar: (+99412) 498- 80- 65; (+99412) 498-77-80
Faks: (+99412) 598-33-25; 498-83-97
E-mail: info@teleradio.az

**Tender Komissiyası.**

---

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## Azərbaycan Texniki Universiteti aşağıdakı boş olan vəzifələri tutmaq üçün

# MÜSABİQƏ ELAN EDİR

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün**

| | | |
|---|---|---|
| 1. | 1. Xüsusi texnika və texnologiyalar | |

